Qazax şairi Uluğbəy Esdövlətin azərbaycanca ilk kitabı

Azərbaycan-Qazaxıstan ədəbi əlaqələrinin tarixi bir neçə əsrlik bir zamanı əhatə edir. Ümumtürk mədəniyyətləri sırasında qazax ədəbiyyatı da öz zənginliyi və özünəməxsusluğu ilə seçilir. Biz qazaxların yaratdıqları akın poeziyasından xəbərdarıq, qazax dastanlarının akınlar təfəfindən əzbərlənib məclislərdə söylənilməsi haqqında da bilgimiz var. XIX-XX əsrlərdə qazaxların yazıflı ədəbiyyatı formalaşıb, onun ilk nümayəndələri Çokan Vəlixanov, İbray Altıfnsarin və Abay Kunanbayev olmuşlar.Abay Kunanbayevin əsərləri əllinci illərdən başlayaraq Azərbaycan oxucuülarına yaxşı tanışdır.XX əsrdə isə onların Cambul Cabayev kimi xalq şairi təkcə öz ölkəsində deyil, keçmiş SSRİ ərazisində məşhur idi. Sovet dövründə Svken Seyfullin, Sabit Mukanov, Muxtar Auezov kimi qüdrətli sənətkarları yetişmişdir.Və nəhayət, Oljes Süleymenov O, müasir qazax ədəbiyyatının rəmzidir lesək, yanılmarıq. Vaxtilə onun türkçülük və millət duyğusundan yaranan "As i Ya" əsərini xatırlayaq. Çox təqiblərə məruz qaldı bu əsər, amma sonda etiraf olundu. Azərbaycanda da onun çoxlu dostları, həmfikirləri var.



Qazax ədəbiyyatı indii də öz ənənələrinə sadiqdir. Şair Akif Əhmədgil müasir qazax şairi Uluqbəy Esdövlətin (o, Qazvxıstan Yazıçılar İttifaqının sədridir) şeirlərindən ibarət bir kitabı oxuculara təqdim edib. Təbii ki, Azərbaycan dili ilə qazax dili arasında müəyyən ayrıntılar, fərqlər nəzərə çarpır, amma Akif Əhmədgil qazax şairinin ruhunu duymuş, poetik dünyasına bələd olmuşdur. Kitaba tənqidçi Məti Osmanoğlu ön söz də yazıb. O, qeyd edir ki, müasir qazax ədəbiyyatında ənənələrə bağlılıqla yanaşı, modern poeziyanın təsirləri də diqqəti cəlb edir. Və Uluqbəy ədəbiyyata bu genişliyin içində gəlib, Moskvada təhsil almağı, rus ədəbiyyatına yaxındae bələdliyi, sonradan türk dilini öyrənməyi, klassik və modern türk ədəbiyyatıf ilə tanışlığı onun yaradıfcılıq üfüqlərinə bir genişlik gətirib. Ancaq onun şeirləri müasir qazax poeziyasının son iyirmi-otuz ildə keçdiyi yolu müəyyən dərəcədə özündə əks etdirir. Qazax xalqının bu illər ərzində ictimai-siyasi həyatında, mənəvi dünyasında baş verən hadisələr Uluğbəyin şeirlərində öz əksini tapır.O, özünü türk dünyasının bir övladı hesab edir, "Türküstan marşı" şeiri onun bu dəyanətini, bu bağlılığını sübut edir:

Türk milləti, qalx ayağa, dimdik dur...
Diz çökənin nə əvvəli, nə sonu.
Əlbir olmaq diləyidir türklərin,
Birlik olsa, möhnət olmaz, bil bunu.

An gələr-
Qanad çırpıb silkinər,
Gün doğdumu, söküləcək göy üzü,
Nə vaxtacan töküyləcək göz yaşı?..
Birləşin... türk milləti, birləşin...

Bir atadan, bir anadan yarandıq
Səpələndik yer üzünə
Altaydakı beşikdən.
Can qardaşım, dilimiz bir, dinimiz bir.
Soy kökümüz Gültəkinmi?..
Ata yurdum Altayda
Bir araya gələ bilmək çətinmi?

Uluğbəyin şeirlərində insan və zaman probemi də öz poetik həllini tapır. Onun "Zaman da keçər" şeirində insanın zamanla dialoqu təqdim edilir.

Zaman keçir, dünyaya yeni nəsillər gəlir, insan nəyi arpzulayır? "Kaş analar diksinməsin beşik başında. Rahat uyusun atalar qəbirlərində". "Həyat" şeiri də həmin fikrin davamı kimi səslənir, amma bu şeirdə bir nikbinlik çalarını görürsən: "Həyat nəfsinlə savaşmaqdır. Böyüyərək çoxalmaq, Səməndər quşutək günəşə qovuşmaqdır".Ümumiyyətlə, Uluğbəyin şeirlərində həyati duyğular, hətta romantik hisslər bir-birini əvəz edir. O, Türkiyədə Elazığa yollanır, Xəzər gölünə tamaşa edir, bizim başıf bəlalı qürbət şairini yad edir: "Ərlərin ərənidi Azərbaycan şairi Almas İldırım"..Öz millətinin müstəqilliyinə salavat çevirir: "Qığılcımdıq, atəş olduq, kömür idik, köz olduq.Dəmir idik-mərmi olduq. Azadlıq nəğməsini Pıçıltıyla söyləsək də, Sonda cümlə-söz olduq. Gördük bu eşq ilə Ədaləti, Ədavəti..Salavat"!. Öz doğulduğu kəndi də vəsf edir:

Bizim kəndin Ayı kimi Ay
Heç yerdə doğmadı.
Bizim kəndin Ayı
Mənə doğmadı.
Bizim kəndin gecəsi kimi gecə
Görmədim başqa diyarda.
Qulağımdan getməz nal səsi,
Heç yerdə görmədim
Bu kənddə mindimyim atları.

Bəs sevgi haqqında nə deyir? "Sevgilim, Günəşə bax və mözünə bax, Gecəyə bax və gözünə bax, Aya bax və qaşıfna bax, Dalğaya bax və saçına bax". Ənənəvi Şərq şeirinin təşbihləri bu şeirdə orijinal şəkildə öz ifadəsini tapmışdır.

Uluğbəyin şeirləri barədə çox danışmaq olar. "Namus haqqında ballada", "Söz məzarlığı", "Həccə getmək", "Altayın qar fırınası" və s. şeirləri onun ən tutumlu şeirləridir. Nəticədə biz müasir qazax poeziyasının istedadlı bir nümayəndəsinin yaradıcılıfq dünyası ilə tanış oluruq. Fikrimizi onun Vətən duyğulu bir şeirindən aşağıdakı misralarla tamamlayaq::

Doğulduğum evin pəncərəsindən
Aydın görünür
Qazaxıstan çölləri
Doğulduğum yerlərlə nəfəs alıram,
Ürəyimdə saxlayıram
Ana bilib doğulduğum torpağı,
Torpaq sevgsindən doğulur şair.
Odur ki Vətən haqqında olur
Hər zaman söylədiyim ilk şeir.

VAQİF YUSİFLİ

Ədalət 2019.- 14 noyabr.- S.8.